(əvvəli ötən sayımızda)

# YÜKSƏLİŞ YOLUNUN ZAQATALA GERÇƏKLİYİ

**2015-ci ilin birinci yarımilində büdcəyə vergi və tədiyyələr üzrə 3,7 milyon manat vəsait daxil olmuş, proqnoz tapşırıqlar 108,8 faiz icra edilmişdir. Gəlirlərin 6,8 faizi dövlət sektorunun, 93,2 faizi qeyri-dövlət sektorunun payına düşmüş, vergi qanunvericiliyini pozan 719 vergi ödəyicisinə 508,3 min manat həcmində maliyyə sanksiyası tətbiq edilmişdir.**

Hesabat ilində mərkəzləşdirilmiş xərclərdən 10,3 milyon manat subsidiya alınmış, büdcə xərcləri 11,8 milyon manat və ya 94,0 faiz icra olunmuşdur.

Ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da əhalinin rifah halının, onun maddi təminatının yaxşılaşdırılması, sosial müdafiənin gücləndirilməsi, ünvanlı sosial yardımların, pensiyaların, əməkhaqlarının vaxtında verilməsi, aztəminatlı ailələrə qayğının artırılması daim diqqət mərkəzində saxlanılmışdır. 2015-ci ilin birinci yarımilində rayonda orta aylıq əməkhaqqı və orta aylıq pensiyanın məbləğində artım müşahidə edilmiş, 129 pensiya işi təyin edilmiş, 16481 pensiyaçıya xidmət göstərilmiş, 2,9 milyon manat, o cümlədən qeyri büdcə üzrə ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çox məcburi dövlət sosial sığorta haqları yığılmış, 39 fiziki şəxsə qarşı maliyyə sanksiyaları tətbiq edilmişdir. 2015-ci ilin birinci yarımilində rayonda 4287 nəfərə sosial müavinət, 375 nəfərə prezident təqaüdü, 53 nəfər əlilə əlillik, 4 nəfər şəhid ailəsinə şəhidlik vəsiqəsi, 2147 ailənin 9250 üzvünə (hər ailəyə orta hesabla 154,0 manat) ünvanlı sosial yardım verilmiş, 216 nəfər tək-kimsəsiz qocalara xidmət göstərilmişdir.

Hesabat dövrü ərzində məşğulluq xidməti orqanları tərəfindən 470 nəfər işaxtaran kimi qeydiyyata alınmış, 260 nəfər münasib işlə təmin olunmuş, 5 nəfərə işsiz statusu verilərək işsizlik müavinəti təyin edilmişdir. Rayonda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti gücləndirilmiş, işverənlər tərəfindən 86 qanun pozuntusu aşkar edilərək müvafiq tədbirlər görülmüşdür. Cənab Prezidentin tapşırığı əsasında ASAN xidmət mərkəzləri fəaliyyət göstərməyən bölgələrdə ASAN xidmətin səyyar avtobuslarının əhaliyə xidmət göstərməsi nəzərdə tutulmuşdur. Artıq ikinci dəfədir ki, ASAN xidmətin səyyar avtobusları rayona gəlmiş və 18 iyun 2015-ci il tarixdən rayon Mədəniyyət evində və Mədəniyyət evinin qarşısında əhalinin xidmətdən yararlanması üçün əlverişli şərait yaradılmışdır.

Gün ərzində təxminən 250-300 vətəndaş "Asan xidmət"ə müraciət edir və onlara xidmət göstərilir. Rayondan 10 nəfər könüllü bu işə cəlb olunmuşdur. Rayon sakinləri onlara yaradılan bu şəraitə görə cənab Prezidentə və rayon rəhbərliyinə təşəkkürünü bildirirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2015-ci il tarixli "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında" Sərəncamının icrası olaraq RİHB-nın müvafiq sərəncamı ilə ""Kənd təsərrüfati ili" çərçivəsində Zaqatala Rayonu üzrə həyata keçiriləcək Tədbirlər Planı" təsdiq edilərək rayon komissiyası yaradlmışdır.

**"...Kənd təsərrüfatının, sahibkarlığın inkişafı isə bizim üçün prioritet istiqamətlərdir. Biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox önəmli addımlar atılır. Özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etmək üçün biz artıq bu hədəfə yaxınlaşırıq. Ərzaq təhlükəsizliyimizin tam şəkildə təmin edilməsi, ixrac potensialımızın artırılması gələcəkdə həm iş yerlərinin yaradılmasına, eyni zamanda, insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir".**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***



Görülmüş işlərin nəticəsi olaraq, rayonda 2015-ci ilin I yarımilində kənd təsərrüfatı məhsulları istehsalı keçən ilin müvafiq dövrü ilə müqayisədə 21,4 faiz artmış, 2015-ci ilin məhsulu üçün 12148 ha sahədə payızlıq taxıl, o cümlədən 8417 ha sahədə buğda, 14665 ha sahədə yazlıq bitkilər əkilmişdir. Cari ilin I yarısında 9623 ha sahədən 25931 ton taxıl, o cümlədən 6114 ha sahədən 16080 ton buğda, yazlıq əkinlər üzrə 6132 ton kartof, 2260 ton tərəvəz, 181 ton bostan məhsulu, 16.6 ton tütün, 719 ton meyvə, 16.2 ton yaşıl çay yarpağı istehsal olunmuşdur.

Kənd təsərrüfatı tədbirlərinin aqrotexniki müddətlərdə və keyfiyyətlə icra edilməsi məqsədi ilə rayonda bütün imkanlar səfərbər olunaraq 682 ədəd özüyeriyən texnikadan istifadə edilmiş, "Aqrolizinq" ASC-nin rayon filialında olan 50 ədəd müxtəlif kənd təsərrüfatı texnikası vasitəsi ilə cari ilin I yarısında 1270 ha sahədə aqrotexniki işlər yerinə yetirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 23 yanvar 2007-ci il tarixli 1907 nömrəli sərəncamının icrası olaraq 2015-ci ilin məhsulu üçün becərmə aparmış buğda istehsalçılarının maddi marağının artırılması məqsədi ilə 181,6 min manat subsidiya verilmiş, əkin sahəsinin becərilməsində istifadə edilən yanacaq və motor yağlarına görə 885,2 min manat yardım hesablanmış, 2015-ci ilin I yarısında fermer təsərrüfatlarına güzəştli qaydada 224,6 min manat dəyərində mineral gübrələr satılmışdır...

### *Damazlıq təsərrüfatlarında uğurlu tədbirlər*

Öyrənirik ki, cari ilin I yarısında rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə damazlıq təsərrüfatları fəaliyyətini davam etdirmiş, süni mayalanma yolu ilə 2658 baş ana maldan 2125 baş bala əldə edilmiş, iribuynuzlu mal-qaranın baş sayı 61092 başa, qoyun-keçilərin baş sayı 172547 başa çatdırılmış, rayonda 4108 ton diri çəkidə ət, 18303 ton süd, 9053 min ədəd yumurta istehsal edilmiş, damazlıq təsərrüfatının inkişaf etdirilməsi məqsədilə lizinq yolu ilə rayona 4 baş yüksək məhsuldar iribuynuzlu mal-qara gətirilmişdir. Ötən il "Nodulyar dermatit virus xəstəliyi"nin kliniki əlamətləri respublikanın bəzi rayonlarında saxlanılan heyvanlar arasında müşahidə olunmuşdur. Həmin dövrdə RİH Başçısının 29.08.2014-cü il tarixli 181 saylı sərəncamına uyğun olaraq Respublika ərazisində yayılan və İBH-ların tələfatına səbəb olan "Nodulyar dermatit" virus xəstəliyinin rayonda yayılmasının qarşısını almaq məqsədi ilə həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində bu xəstəlik rayonda qeydə alınmamışdır.

### *Qarşıya qoyulmuş mühüm vəzifələr*

Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz nitqində aqrar məsələlərə xüsusi yer verərək demişdir: "....Deyə bilərəm ki, kənd təsərrüfatının inkişafı üçün bu il çox önəmli addımlar atılmışdır. Bir neçə fərman imzalanmışdır ki, bu da kənd təsərrüfatının inkişafına xidmət göstərir. Bildiyiniz kimi, biz güzəştlər edirik, fermerlərə subsidiyalar, güzəştli şərtlərlə yanacaq və gübrə verilir. Təkrar əkin üçün indi yeni şərait yaradılır.

Dövlətin dəstəyi ilə iri fermer təsərrüfatları yaradılır, meliorasiya tədbirləri, bütün aqrotexniki tədbirlər görülür, strukturlaşma prosesi gedir və şəffaflıq təmin edilir. Biz öz potensialımızdan maksimum dərəcədə istifadə etməliyik və əhalimizi 100 faiz səviyyəsində ərzaq məhsulları ilə özümüz təmin etməliyik. Biz buna yaxınlaşırıq".

Qarşıya qoyulmuş bu mühüm vəzifələrin vaxtında və keyfiyyətli icrası məqsədilə rayonda fəaliyyət göstərən əlaqədar təşkilatlar, o cümlədən fermer təsərrüfatları bütün imkanları səfərbər etməlidirlər. Rayonda ekoloji məsələlər də diqqət mərkəzində saxlanılmış, ətraf mühitin mühafizəsi məqsədi ilə inzibati tədbirlər həyata keçirilərək cərimələr tətbiq olunmuşdur.

**2015-ci ilin I yarısında 17500 ədədi yol kənarlarında olmaqla, inzibati ərazilərdə 115500 ədəd ağac əkilmişdir. 462.5 ha sahədə mədəni meşə əkininə xidmət olunmuş, 40 ha sahədə isə mədəni meşə əkini aparılaraq müxtəlif cinslərdən ibarət tinglər əkilmişdir. Hazırda Zaqatala rayonunun meşə sahələrinin ümumi torpaq sahələrinə olan nisbəti 37,6% təşkil edir.**

(ardı gələn sayımızda)

*Məzahir ƏHMƏDOĞLU*




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ